# *AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI*

## İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞININ ARTIRILMASI YOLLARINDAN

**Günel Muradova,**
*fəlsəfə doktoru hazırlığı üzrə dissertant*
E-mail: gunelm753@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* L.N. Qasımova
*ped.ü.fəls.dok., dos.* N.B. İmamverdiyeva

***Açar sözlər:*** *Təhsil, strategiya, idrak, şagirdlər, dərslik*
***Key words:*** *education, strategies, cognition, students, textbook*
***Ключевые слова:*** *образование, стратегия, познание, студент, учебник*

Azərbaycan Respublikası müstəqillik qazandığı dövrdən bütün sahələrdə olduğu kimi təhsil sahəsində də bir sıra yeniliklər etdi. 90-cı illərin sonlarından başlayaraq aparılan islahatlar təhsilin müasir dövrlə və dünya təhsili ilə ayaqlaşmasına şərait yaratdı. 1990-cu il tarixində "Azərbaycan Respublikasında təhsil sahəsində İslahat proqramı" təsdiqləndi. Bununla da təhsil sistemində köklü dəyişikliklər baş verdi. İlk öncə öyrədici mərhələ başlandı ki, həm Azərbaycanda təlim tərbiyə sistemi həm də dünya ölkələrində təlim tərbiyə sistemi öyrənildi. Pilot müəssisələr təşkil olundu. II mərhələ hazırlıq mərhələsi idi ki, bu mərhələdə təhsil sistemini və təlimin məqsəd, forma məzmun və vasitələrindən ibarət sistemə yanaşma dəyişdirildi. Daha sonra III mərhələsi tətbiq mərhələsinə keçilmişdir [1].

Müasir dövr müasir təhsil bizdən yalnız bilikli deyil, bacarıqlı şəxslər yetişdirməyi tələb edir. Hafizəyə əsaslanan təlimin təfəkkürə təxəyyülə əsaslanan təlimlə əvəz olunması əsas amilə çevrilmişdir. Bu cəhətdən aparılan kurikulum islahatının prinsiplərinə nəzər salsaq bu prinsiplərin müasir dövrün tələblərini özündə əks etdirdiyinin açıq şəkildə görə bilərik prinsiplər şəxsiyyətyönlülük, şagirdyönlülük, nəticəyönlülük, tələbyonlülük, inteqrativlik, qiymətləndirmə. Kurikulumun təməlində nəticəyönlülük dayanır. Nəticəyönlülük fəaliyyətin qurulmasında, gedişatında və məqsədə nail olma yollarında önəmli amildir. Ümümilikdə götürdükdə bütün prinsiplər təlim prosesində əsas rol oynayır. Təlimin hərtərəfli şəkildə aparılmasını dərk edilməsini təlim prosesində şagirdlərin subyekt kimi fəaliyyəti göstərilməsində əsas amildir. Dünyanın tam bütöv bölünməz varlıq kimi dərk edilməsi də təlim prosesinin inkişafına səbəb olur. Kurikulum islahatları çərçivəsində 2006-cı il 30 oktyabr Azərbaycan Respublikası Ümümtəhsil Konsepsiyası (Milli kurikulum) qəbul edildi [7]. Təhsil kurikulumu xarakterinə görə fənnyönümlü, şəxsiyyətyönlü olmaqla iki yerə ayrılır. Şəxsiyyətin bilavasitə həyati bacarıq və vərdişlərə üstünlük verməsi ilə seçilir. Fənn kurikulumu ayrı-ayrı fənlərin bütövlükdə xüsusiyyətlərini əhatə edir. 2010-cu il 23 iyun "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları" müəyyən edilmişdir [9] ki, bu sənəd özündə Ümumi təhsilin məzmunu; Ümumi təhsilin idarə olunmasını; Ümumi təhsilin infrastrukturunu; Ümumi təhsil maddi texniki və tədris bazası; Ümumi təhsildə təhsilalanların bilik bacarıqları və vərdişlərini səviyyəsi əks etdirir [11].

Biz bu sənədin təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi punktuna nəzər salacağıq. Ümumi təhsilli şəxsə qoyulan bacarıq və vərdişlər təhsil pillələri üzrə müəyyənləşir və hər təhsil pilləsində yaş səviyyələrinə və psixoloji inkişafına görə müəyyən standartlar müəyyən olunur. İbtidai siniflərdə yəni ibtidai təhsil üzrə ümumi təlim nəticələrinə əsasən ibtidai sinfi bitirən şagird aşağıdakıları bacarmalıdır [14].

- Yaşına uyğun olaraq elmi-kütləvi və məlumat xarakterli mətnləri müəyyən edilmiş qaydada oxumağı.

- Oxuduğu mətndəki əsas məzmunu ayırmağı və ona öz fikrini bildirməyi

- Lüğətlərdən, məlumat xarakterli vasitələrdən kompüter texnikasından istifadə etməyi bacarmalıdır.

- öz fikirlərini şifahi və yazılı formada aydın ifadə etməyi bacarmalı.

- məntiqi düşünmək fikir irəli sürmək, başqasının fikrinə münasibət bildirməyi

- zəruri riyazi bilikləri həyatda tətbiq etmək və sadə alqoritmləri yerinə yetirməyi.

- müşahidə etdiyi obyekt və hadisələri təsvir etməyi onların səciyyəvi cəhətlərinə görə fərqləndirməyi.

- Ünsiyyət qurmağı əməkdaşlıq etməyi, komanda və kollektiv daxilində fəaliyyət göstərməyi.

- Sadə mədəni davranışı və şəxsi gigiyena və zəruri təhlükəsizlik qaydalarına əməl etməyi.

- Müəyyən olunmuş normativlər çərçivəsində fiziki hərəkətləri, bədii-estetik qabiliyyətini nümayiş etdirməyi, sadə əmək vərdişlərini tətbiq etməyi;

- Öz hüquqlarını müdafiə etməyi, başqasının hüquqlarına hörmət etməyi; insanlara, təbiətə, şəxsi və dövlət əmlakına, başqasının əməyinə həssas, qayğıkeş və ədalətli münasibət göstərməyi;

- Azərbaycan xalqının əxlaqi-mənəvi dəyərləri, tarixi, mədəniyyəti, incəsənəti, görkəmli şəxsiyyətləri haqqında qazandığı ilkin bilikləri, habelə ölkəsinə qarşı əks mövqedə olan qüvvələri sadə formada təqdim etməyi;

- xarici dildə sadə ünsiyyət bacarıqlarına yiyələndiyini nümayiş etdirməyi [14].

Bu ümumi təlim nəticələri əsasında orta təhsil səviyyələri üzrə məzmun standartları müəyyənləşdirildi və təqdim olundu. Bizim nəzər salacağımız sahə Azərbaycan dili fənnində şagirdlərin yiyələnməli olduqları həyati bacarıq və vərdişlərdir. Azərbaycan dili fənninin məzmun standartlarına əsa sən şagird aşağıdakı keyfiyyətlərə malik olmalıdır.

Dinlədiyi mətnlərə münasibət bildirməklə, mövqeyini əsaslandırır; mətni düzgün və ifadəli oxuyur, məzmun və strukturuna görə təhlil edir; dil vahidlərindən istifadə etməklə, müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər qurur, onları təkmilləşdirir; müxtəlif məzmunlu məlumatlar əsasında təqdimatlar edir; şifahi və yazılı nitqində zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir. dinlədiyi mətnin məzmununu izah edir, ona münasibət bildirir; şüurlu və ifadəli oxu bacarıqlarını nümayiş etdirir; müxtəlif formalı rabitəli mətnlər qurur və təqdim edir; öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə edir; nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif mənbələrdən istifadə edir, tərcümə bacarığını nümayiş etdirir".

Məzmun standartları məzmun xətti əsas və alt standartı olmaq üzrə 3 yerə ayrılır. Ana fili fənni üzrə 4 məzmun xətti – 1) Dinləyib, anlama. 2) Oxu. 3) Yazı. 4) Dil qaydaları müəyyən edilmişdir". Bu məzmun xətlərinin reallaşması şagirdlərin təlim fəaliyyətinin qurulmasına xidmət edir. Müasir təlim prosesi şagirdlərin idrak fəallığının artırılmasına yönəlmişdir. Bütün fənlər eləcədə Azərbaycan dili fənninin tədrisi bu istiqamət üzrə aparılır. İdrak prosesinin inkişafına nəzər salmadan öncə idrak prosesi nədir sualına cavab axtaraq. İdrak obyektiv aləmin, onun qanun və qanunauyğunluqlarının insan beynində müəyyən məqsədə yönəlmiş fəal inikasıdır. İdrakın mənbəyi insanı əhatə edən xarici aləmdir. İdrak fəlsəfi problem kimi dedikdə idrak nəzəriyyəsinin predmeti yaxud qnoseologiya nəzərdə tutulur. *Qnoseologiya* yunan mənşəli olub, "*qnozis*" bilik *loqos* söz təlim deməkdir. İdrak nəzəriyyəsi terminini ilk dəfə fəlsəfəyə Şotland filosofu C. Ferrey 1854-cü ildə gətirmişdir. İdrak proseslərinə duyğu, qavrayış, hafizə, təfəkkür, təxəyyül, nitq, diqqət aiddir. Təlim prosesində bunların inkişaf etdirilməsi əsas məqsədlərdəndir. Əvvəllər yalnız bilik verməklə hafizəyə əsaslanan təlim aparılırdısa müasir təlim bizdən bilik verməklə yanaşı bu biliyi bacarığa çevirməyi bacaran şəxslər yetişdirməyi tələb edir.

Müasir təlim fəal dərs adlandırdığımız bu prosesdə şagirdlərin gələcək dövr üçün insan kapitalına çevrilməsi məqsədi güdür. Təlim prosesinin daha effektiv nəticə verməsinə şərait yaradır. Bunun üçün fənnin tədrisində idrak nəzəriyyəsinin (Blum taksonomiyası) səviyyələri əsas götürülür. Bu 4 məzmun xətti ilə idrak nəzəriyyəsinin səviyyələrini birləşdirdikdə fənnin tədrisini nəticəliliyi görünən dərəcədə effektli olur.

Şagirdlərin Azərbaycan dili dərslərində mövzunun öyrənilməsi zamanı onu bilməsi, qav-

raması, tətbiqetmə bacarıqlarının inkişafına yönəlmişdir. Azərbaycan dili dərslərində idrak bacarıqlarının nəzərə alınaraq tətbiqi də vacib şərtdir. Bu cəhətdən təlim prosesində təlimin təşkili formaları və təlim texnologiyaları fənnin tədrisində kömək edə bilər. Müasir dövrdə fəal təlim texnologiyalarından istifadə edirlər və problemli şəraitin yaradılması ilə şagirdlərin fənni öyrənmə həvəs oyatmaq onların müstəqil öyrənməsinə şərait yaradırlar. Problemli şəraitin yaradılması şagirdlərin elmi idrak metodlarına yiyələnməsinə imkan verir. Elmi axtarışa stimullaşdırır. Fəal təlimin müxtəlif forma və metodları təlim prosesinin səmərəli qurulmasına qarşıya qoyulmuş məqsədlərə nail olmasına xidmət edir.

Azərbaycan dilin fənninin tədrisində şagirdlərin fənni öyrənməsində şagirdlərin biliklərə müstəqil yiyələnmək və yeni bilik əldə etmək və bilikləri yaradıcılıqla işləmək, onlardan həyatlarında məqsədə çatmaq üçün istifadə etmək öz yoldaşları ilə problemin həllində əməkdaşlıq, öz qabiliyyətlərinin gerçəkləşdirmək üçün yollar axtarmağa imkan verir [4]. Azərbaycan dili dərslərində idrak fəallığının artırmaq üçün problemli şəraitin yaradılması problemin qoyulması vacib şərtdir. Problem diqqətin mərkəzləşməsinə təfəkkürün fəallaşmasına gətirib çıxarır ki, nəticədə şagird fəallaşır. Şagirdlərin marağını cəlb edən maraqlı müxtəlif fərziyyələr yaradan, müstəqil tədqiqatı mümkün olan, şagirdlərin imkanlarına müvafiq gələn, şagirdin öz bacarığının həyata keçirməyə imkan verən tapşırıqlar əsasında yaratmaq mümkündür. Fəal təlim prosesində istifadə olunan təlim texnologiyalarında təlimin səmərə verməsinə xidmət edir. Bu cəhətləri nəzər alaraq 2013-cü ildə "Azərbaycanda Təhsilin İnkişafı Üzrə Dövlət Strategiyası" qəbul olundu [4]. Strategiyanın əsas məqsədləri vətəndaşın identikliyinin formalaşması və qorunması, xalqın mədəni-mənəvi sərvətlərinin çoxaldılması, sosial mühitin keyfiyyətinin yüksəldilməsi, hər bir fərdin inkişaf perspektivlərinin təmin olunması, insan resursunda baş verən keyfiyyət dəyişikliklərinin təhsilin keyfiyyət dəyişikliyindən asılılığı, açıq, çevik və imkan daxilində olan təhsil sisteminin formalaşmasıdır.

Strategiyanın birinci istiqaməti səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsilin məzmununun yaradılmasıdır. Bu istiqamət təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla bütün pillələri üzrə təkmilləşdirilmiş, yeniləşdirilmiş kurikulumların hazırlanması məsələlərini qarşıya qoyur. Strategiyanın ikinci istiqaməti təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət yeni pedaqoji texnologiyaların tətbiqini, innovativ metodlardan istifadəni də özündə birləşdirir. Strategiyanın üçüncü istiqaməti təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasıdır. Strategiyanın dördüncü istiqaməti ömürboyu təhsili təmin edən infrastrukturun yaradılmasıdır.

Strategiyanın beşinci istiqaməti təhsil sisteminin iqtisadi cəhətdən dayanıqlı, dünya standartlarına uyğun maliyyələşdirmə modelinin qurulmasıdır. Bütün bu istiqamətlərdən çıxış edərək deyə bilərik ki, təlim səmərəliyini artırmaq üçün əsas şərtlərdən biri də öyrədici mühitin düzgün təşkil olunmasıdır. Təlimin qarşıya qoyduğu vəzifələrin və prinsiplərin həyata keçirilməsi təlim-tərbiyə prosesinə təsir edən amillərdən və şərtlərdən, məhz öyrədici mühitdən əhəmiyyətli dərəcədən asılıdır. Uşağı əhatə edən şəraitin onun dərk etmək tələbatına, maraqlarına və problemlərinə nə dərəcədə istiqamətlənmiş olması tədris prosesinə münasibəti ilə çox əlaqəlidir. Öyrədici mühit şagirdi əhatə edən şəraitin aşağıdakı xassələrini əks etdirir: Bunlar əşyavi mühit, informasiya mühiti və sosial-psixoloji mühitdir [26]. Müasir təhsilin bir effektli vasitələrindən biri də təhsil prosesində kompüter texnologiyasından istifadə edilməsidir. Təhsildə İKT-in tətbiqi şagirdlərin özfəaliyyətini gücləndirir və onlarda individual yaradıcılıqlarının inkişafına, intensiv fəaliyyətə, diqqətliliyin artmasına səbəb olur. Təhsildə internetdən istifadə onların qabağına böyük imkanlar açır və təhsillə bağlı internet proyektlərində iştirakına imkan yaradır. Bundan əlavə elektron lövhələrin tətbiqi də təhsil prosesinin maraqlı səmərəli keçməsinə şərait yaradır. Təlimdə əyanilik metodunun tətbiqində böyük rol oynayır.

Bütün bunlardan çıxış edərək Azərbaycan dili dərsliyini nəzərdən keçirək. II sinif Azərbaycan dili dərsliyinin birinci bölməsi "Dəyərlərimiz" adlanır və burada dəyərlərimizi əks etdirən mətnlər elmi və bədii mətlər olmaqla iki yerə ayrılır. Mətnlər məzmun xəttinin "oxu" hissəsini əhatə edir və şagirdlərin oxu qabiliyyətlərinin inkişafına yönəlmişdir. Mətnin sonunda həm dil

qaydalarının mənimsənilməsi və anlamasına xidmət edən həm də mətnin məzmunun qavranılmasına xidmət edən tapşırıqlar mövcuddur. Bu da məzmun xəttinin dinləyib anlama hissəsinə uyğundur. Dil qaydaları məzmun xəttini burada verilmiş qaydalar özündə əks etdirir və burada "Səs hərf", "Sait və samit səslər", "Heca", "Sözün sətirdən-sətrə keçirilməsi", "Sözlərin düzgün yazılışı" verilmişdir və bu qaydaların mənimsənilməsinə və qavranılmasına xidmət edən qaydalar əks olunmuşdur. Bu tapşırıqlar şagirdlərin inkişafında həm məzmun xətlərinin həyata keçirilməsinin həm də idrak fəallığının artırılmasına xidmət edir. Nəzərdən keçirdiyimiz bölmənin bir mövzusuna və onun tapşırıqlarına diqqət yetirək.

"Bayraqlar" mövzusunda bayraq haqqında məlumat verilir hansı məqsədlə istifadə olunması diqqət mərkəzində saxlanılır. Bayraq mövzusunun daha yaxşı mənimsənilməsinə xidmət edən tapşırıqlar 1) Mətndə göy rəngdə verilmiş sözü hansı sözlə əvəz etmək olar. Bu tapşırıq şagirdin həm söz ehtiyatının artırılmasına həm də təfəkkürünün inkişafına imkan verir. mətinin düzgün qavranılmasının yoxlamaq və möhkəmlətmə aparmaq məqsədilə test tapşırığı verilib. BİBO cədvəlindən istifadə edərək bayraq haqqında nə bilirdilər nə öyrəndilər və nəyi bilmək istəyirlər tapşırığı da verilmişdir. Bu şagirdin düşünmə, əvvəlki təcrübəsindən, digər fənlərdə topladığı məlumatlardan istifadə etmə və mətnə diqqətini daha da artırmasına xidmət edir. Sonuncu tapşırıqda dünya ölkələrinin bayraqlarının öyrənilməsi və tanınmasına imkan verən tapşırıq verilib ki, bu şagirdlərin digər ölkələrin bayraqlarının nə üçün bu simvollardan istifadə etdikləri haqqında məlumat toplamalarına həvəs oyadır. Bu şagirdlərdə tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsinə xidmət edir. Dil qaydaları hissində "Sait və samit səslər" verilib danışıq səsləri haqqında məlumat verilib. Tapşırıqlar vasitəsi ilə verilmiş məlumatın dərk edilməsi məqsədə uyğun şəkildə əks olunub. Burada həmçinin əyanilik prinsipi də qorunmuşdur və tapşırıqlar əyanilikdən istifadə edilərək yazılmışdır. Bu mövzunun daha dərin qavranılmasına xidmət edən digər bir tapşırıq isə şagirdləri cütlər şəkilində qruplaşdırmaqla onlara dünya ölkələrinin bayraqları və onların mənalarının araşdırmaq və bu haqda esse yazmağı tapşırmaq olar. Bu tapşırıq mövzunun hərtərəfli öyrənilməsi həm digər fənlərə interasiyaya həm də şagirdlərin müstəqilliyini artırmağa kömək edir. Beləliklə, məqalənin sonunda bu nəticəyə gələ bilərik ki, şagirdlərin idrak qabiliyyətlərinin inkişafinda dərs prosesində bu qabiliyyətləri işə salan sövqedici tapşırıqlar və ya suallar verilməlidir və İKT vasitələrindən də istifadə etməklə əyaniliyi yaratmaq şagirdlərin diqqətini cəlb etmək olar.

**Problemin aktuallığı.** Müasir dövrdə təhsilin qarşısında qoyulan tələblər və insan kapitalının formalaşması məsələsindən bəhs edilir. Bu əsasda şagirdlərin idrak fəallığını Azərbaycan dili dərslərində artırılması işində dərsliklərdə verilən tapşırıqların mövcud standartlara uyğunluğunun araşdırılması, məzmun xətlərini özündə əks etdirməsinin vacibliyi diqqət mərkəzində saxlanılıb.

**Problemin elmi yeniliyi.** İdrak fəallığının artırılması işində şagirdlərin hərtərəfli inkişafına nail olmaq üçün Azərbaycan dili dərslərində verilən tapşırıqlarda inteqrativ daha çox gözlənilsin. İdrakı fəallığı artıran tapşırıqlar və sualların verilməsi və dil və yazı qabiliyyətlərinin inkişafı üçün esselərin daha çox yer verilsin.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən fikirlərin Azərbaycan dili dərslərində tətbiqi ilə idrak fəallığının artırılmasına nail olmaq olar.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin sərəncamı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev. Bakı şəhəri, 15 iyun 1999-cu il. Bakı: Çaşıoğlu, 1999.
2. "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı // Xalq qəzeti, 25 oktyabr 2013-cü il
3. Qəhrəmanov A. Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim materialı
4. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı: ADPU, 2012.
5. Rüstəmov F.A., Dadaşova T.Y. Ali məктəb pedaqogiкası: Magistratura pilləsi üçün dərsliк. Baкı: Nurlan, 2007.

**Г. Мурадова**

**СПОСОБЫ ПОВЫШЕНИЯ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ УЧЕНИКОВ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В НАЧАЛЬНЫХ КЛАССАХ**

***РЕЗЮМЕ***

В статье рассматриваются способы повышения познавательной активности учеников. Требования к современному образованному человеку обсуждаются в их механизмах. В целях развития познавательных способностей учащихся в области образования были изучены стандарты, отражающие содержание четырех основных материалов.

**Q. Muradova**

**WAYS TO INCREASE THE COGNITIVE ACTIVITY OF STUDENTS IN THE LESSONS OF AZERBAIJANI LANGUAGE AT PRIMARY SCHOOL**

***SUMMURY***

This article describes the ways how to improve cognitive activities among pupil. At the same time, educational requirements and development mechanisms of modern person will be analyzed. In order to develop cognitive activities of pupil in the field of education, methods, which used in Azerbaijan language classes had defined and four major standards analyzed.

**Redaksiyaya daxil olub:** 15.02.2018